# "Arzum qəhrəman Azərbaycan əsgərinin obrazını yaratmaqdır"

**"Aktyor olmağımın səbəbkarı anam və görkəmli aktyorların yaratdığı qədim Azərbaycan filmləri olub. Kiçik yaşlarımdan filmlərimizə baxanda anam rolları canlandıran aktyorları mənə tanıdar, maraqlı məlumatlar verərdi. O zaman aktyor olacağımı düşünməsəm də, kino qəhrəmanlarına oxşamağa çalışırdım. Filmlərimiz ruhuma hakim kəsilmişdi. Sonralar Adil İsgəndərovun, Şahmar Ələkbərovun, Hamlet Xanızadənin, Həsən Məmmədovun, Yusif Vəliyevin, Həsənağa Turabovun, Yaşar Nurinin, Siyavuş Aslanın, Amaliya Pənahovanın, Səfurə İbrahimovanın, Sənubər İsgəndərlinin yaratdıqları obrazlara dəfələrlə baxar, onların səs tembrini, danışıq tərzini, diksiyalarını hafizəmə yazmağa çalışardım. Onlar kimi danışmaq, yerimək, hətta dünyanı onlar kimi görmək istəyirdim. O qədər filmə baxmışdım ki, dublyaj olunan filmlərdə aktyorları səsindən tanıyırdım. Anama deyirdim ki, "ana, bu, Ənvər Həsənovun səsi deyil, Əliabbas Qədirovun səsidir…**



O zaman filmlər demək olar ki, səsin üzərində qurulurdu. Rasim Balayevin həm sənətinin, həm də səsinin vurğunuydum. Onun "Nəsimi" filmindəki yaratdığı möhtəşəm Nəsimi obrazına baxdıqdan sonra qəti qərar verdim ki, mən də aktyor olacağam".

Redaksiyamızın bugünkü qonağı aktyor Tural Əhməddir. O, 9 may 1983-cü ildə anadan olub. İbtidai təhsilini Mərdəkan qəsəbəsindəki 181 saylı məktəbdə alıb, on birinci sinfi 151 saylı məktəbdə başa vurub.

Tural deyir: "Evdə aktyor olmağımı istəmirdilər. Valideynlərimin sözündən də çıxa bilmirdim. Məcbur qalıb sənədlərimi Jurnalistika fakültəsinə verdim. Azərbaycan İctimai-Siyasi Universitetinin Jurnalistika fakültəsini bitirəndə anladım ki, bu, mən deyiləm. Arzum, məqsədim var, bir ömür getmək istədiyim yol var. Birbaşa valideynlərimə də "yox" demədim. Elə həmin il hərbi xidmətə getdim.

Sənətə gəlişim isə tamamilə təsadüfi oldu. Bir gün metroda əsgər yoldaşımla qarşılaşdım. O, mənə kino məktəbindən danışdı və sənədlərimi verməyi təklif etdi. Razılaşdım. İmtahanları uğurla verərək qəbul oldum. İmtahan komissiyasında Şəfiqə Məmmədova, mərhum Fuad Poladov, Rüstəm İbrahimbəyov və Cəmil Quliyev kimi sənətkarlar var idi. 2008-ci ildə Rüstəm İbrahimbəyovun Beynəlxalq kino məktəbində Şəfiqə Məmmədovanın kursunu bitirib, 25 yaşımda aktyorluğa gəldim".

2008-ci ildən aktyorluğa başlayan Tural Əhməd ilk rolu ilə rejissorların diqqətini cəlb edir. Bu illərdə çoxsaylı bədii film, bir çox seriala çəkilən aktyor sənət sahəsində özünü təsdiq etmiş aktyor kimi tanınır.

2015-ci ildən Bakı Bələdiyyə Teatrında fəaliyyət göstərən Tural Əhməd bu illər ərzində müxtəlif tamaşalarda maraqlı obrazlar canlandırıb. Onun sənət qalereyası ilə tanış olduqda bir sıra rəngarəng obrazlar yaratdığının şahidi oluruq. "Məkr və Məhəbbət"də Ferdinand fon Valter, "Nargin faciəsi"ndə Fərqat Tursun, "Şanlı Vətən"də Əhməd Cavad, "Nəsimi"də Nəsimi, "Sonsuz tanrı məhəbbəti"ndə Nizami Gəncəvi, "Sehrbaz"da Samit, "Xan qızı"da Xasay bəy, "Şuşada ürəyim qaldı"da Mahmud bəy, "Ana tarla"da Qasım, "Şekspir"də Drob 13, "Ötən günlər"də Atabəy obrazlarını canlandırıb.

Tural deyir ki, aktyor üçün rolun böyüyü-kiçiyi olmur: "Yaratdığım obrazlar dogma övladlarım kimidir. Valideyn övladları arasında ayrı-seçkilik etmədiyi kimi, aktyor da yaratdığı obrazları bir-birindən ayırmır. 29 aprel 2025-ci ildə Akademik Milli Dram Teatrında məşhur özbək yazıçısı Abdulla Qədirinin "Ötən günlər" romanı əsasında hazırlanan tamaşanın premyerası oldu. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, bədii rəhbər Aynur Muxtarova, səhnələşdirən isə Kənan Hacı idi. Bu tamaşada Atabəy obrazını canlandırdım. Həm tamaşanın ruhundan, həm də tamaşaçıların reaksiyasından böyük zövq aldım. Həyatdır da, maddi sıxıntı da olur, çatışan, çatışmayan o qədər işimiz var ki... Tamaşadan sonra özümə dedim ki, Tural, nə yaxşı ki, sən bu yolu seçmisən".

Özünəməxsus səs tembri olan sənətkarın kinoda ilk debütü Ülviyyə Könülün rejissoru olduğu "Sirr" serialında İmran Axundov obrazıdır. Bundan sonra rolların vizual şərhini dəqiq çatdırdığına görə rejissorlar ona ikinci planlı və baş rollar həvalə etməyə başlayırlar. Beləliklə, aktyor 30-dan çox filmə və seriala çəkilir. İkiseriyalı "Atabəylər" bədii filmində Arslan şahı, "Aktyor" bədii filmində Ənvəri, "Möcüzə" bədii filmində Kamranı, "Gizli yara" serialında Turalı, "Nağıl kimi cümhuriyyət" sənədli filmində Stalini canlandıran aktyor "İlğım", "Sərnişinlər", "Şeyx Sənan", "İnci tək", "Yuxu kimi", "Zəhər tuluğu", "Gecə yarısı", "İfşa", "Nəfəs", "Ata ocağı", "Qara yazı", "O gecə", "Oyun", "Dəfnə ağacı", "Pərdə", "Əli və Nino", "Yarımdünya", "Tufanlı səma", "İkinci bahar", "Paytaxt salatı", "Nifrət", "Edam məhkumunun son günü", "Xəlvətdə qalmış müdrik", "Həyat çiçəyi", "Həyat varsa" filmlərində yaddaqalan obrazlar yaradıb.

Tural deyir: "Bəli, bir neçə filmə, seriala çəkilmişəm.Yaşıma görə bu, heç də az deyil. İçimdə sanki bir sənət vulkanı var. Hesab edirəm ki, yaratdığım obrazlarla imkanımı tam göstərə bilməmişəm. Düşünürəm, sənətdə daha böyük işlər görməyə imkanım var. Bu gün bütün dünya Azərbaycan əsgərinin Qarbağda göstərdiyi qəhrəmanlıqdan danışır. Arzum Qarabağda Zəfər bayrağını ucaldan qəhrəman Azərbaycan əsgərinin obrazını canlandırmaqdır".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 18 may (№ 102).- S.10.